**Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının 14 aprel 2023-cü il qərar/01 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

# AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR FONDUNUN TƏLİMÇİ MƏLUMAT BANKININ APARILMASI QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Gənclər Fondunun Təlimçi Məlumat Bankı (bundan sonra Məlumat Bankı) Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən və ya Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən layihə və proqramlar çərçivəsində qeyri-formal təhsilin keyfiyyətinin artırılması, təlim-tədris prosesinin təşkilinə nəzarətin gücləndiriməsi və gənclərlə işləyən təlimçilərin əlaqələndirilməsi məqsədi ilə formalaşdırılır.

1.2. Məlumat Bankı elektron formada, Azərbaycan Respublikasının Gənclər Fondunun müəyyən etdiyi elektron resurs üzərindən aparılır.

1.3. Bu Qaydada istifadə edilən anlayışlar aşağıdakı mənanı ifadə edir:

1.3.1. **Təlimçi** – gənclərin, tələbələrin, könüllülərin, gənclərlə və könüllülərlə iş üzrə mütəxəssislərin müəyyən bir sahədə bilik və bacarıqlar əldə etmələri üçün qeyri-formal təhsil vasitələri ilə təlim məşğələlər keçirən şəxs;

1.3.2. **Bildiriş** – Məlumat Bankında qeydiyyata alınmanı (akkreditasiyadan keçməsini) təsdiq edən və təlimçiyə verilən müddətli sənəd;

1.3.3. **Məlumat Bankı** – təlimçilər barədə məlumatları özündə ehtiva edən vahid elektron resurs;

1.3.4. **Elektron kabinet** – öncədən müəyyən edilmiş qarşılıqlı məlumat və sənəd mübadiləsinin aparılması üçün təlimçiyə kod-parol ilə daxil olmağa imkan verən fərdi elektron səhifə;

## 2. Məlumat Bankının idarəetməsi

2.1. Məlumat Bankının aparılması üçün Gənclər Fondu tərəfindən işçi qrup yaradılır. Ehtiyac olduğu halda digər dövlət orqanları, gənclər təşkilatlarının nümayəndələri və ekspertlər işçi qrupunun işinə cəlb edilə bilər.

2.2. İşçi qrupun tərkibi Gənclər Fondunun icraçı direktorunun əmri ilə təsdiq edilir.

2.3. İşçi qrup öz daxilində vəzifə bölgüsü aparır və işin dəvamiyyətinə nəzarəti təmin edir.

2.4. Təlimçilərin statusunun müəyyən edilməsi, hər bir şəxs barədə rəyin hazırlanması və Məlumat Bankında daxil edilməsi üçün aşağıdakı işlər görülməlidir:

- şərtlər və tələb olunan sənədlər barədə elan verilməli;
- müvafiq sənədlər toplanaraq qiymətləndimə aparılmalı;
- seçilmiş namizədlər ilə görüşmək və təcrübələrini müəyyən etmək üçün müsahibə keçirilməli;
- ehtiyac olarsa təlim simulyasiyaları təşkil olunmalıdır.

2.5. Məlumat Bankında qeydiyyata alınan təlimçilərin siyahısı Gənclər Fondunun rəsmi internet səhifəsində (www.youthfoundation.az) yerləşdirilir.

## 3. Namizədlərin Məlumat Bankına qeydiyyata alınması üçün şərtlər və müraciət forması

3.1. Məlumat Bankına qeydiyyata alınmaq üçün namizədin aşağıdakı meyarlara uyğunluğu qiymətləndirilir:

- təlim proqramını tərtib etmək bacarığı;
- təlimlərin keçirilməsi üzrə nəzəri və praktiki bilikləri;
- komandada və müxtəlif qruplarda işləmək bacarığı;
- nəticəyönümlü olmaq;
- təlim keçərkən qeyri-formal təhsil üsullarını tətbiq etmək və təlim metodlarından effektiv istifadə etmək;
- təlimlərin aparılmasında 2 il təcrübə;
- “Təlimçilər üçün Təlimdə” (Training of Trainers) iştirak;

3.2. Məlumat Bankında qeydiyyata alınmaq istəyən şəxs 4.1 bəndində qeyd edilən şərtləri nəzərə almaqla elektron ərizə ilə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidir:

- şəxsi və əlaqə məlumatları;
- təlimçilik təcrübəsi barədə məlumat;
- ictimai fəaliyyəti barədə məlumat;
- tərcümeyi-hal (CV);
- yerli və ya beynəlxalq səviyyədə keçirilən “Təlimçilər üçün Təlimlərdə” iştirakını təsdiq edən sənədlərin (şəhadətnamə və s.) surətləri;
- şəxsiyyət vəsiqəsinin surəti;
- ali təhsil barədə sənədin surəti (əgər varsa);
- elektron formada 3x4 ölçüdə şəkil.

3.3. Tələb olunduqda təqdim olunan məlumatların dəqiqləşdirilməsi üçün əlavə məlumat və sənədələr tələb oluna bilər.

## 4. Namizədlərin seçilməsi

4.1. Müraciətin qiymətləndirilməsi aşağıdakı qaydada aparılır:

4.1.1. müraciətin qeydiyyatı aparılır, bu Qaydaların 3-cü bəndinə uyğunluğu müəyyən edilir;
4.1.2. ərizənin, əlavə olunmuş sənədlərin və verilmiş məlumatların uyğunluğu və dəqiqliyi yoxlanılır;
4.1.3. namizəd ilə müsahibə aparılacaq, sahə ilə bağlı məlumatlılıq səviyyəsi və təlimçilik təcrübəsi müəyyən edilir;
4.1.4. məlumatlar işçi qrup tərəfindən müzakirə olunaraq, hər bir şəxs barədə rəy hazırlanır və namizədlərin qısa siyahısı müəyyən edilir.
4.1.5. Qısa siyahı Gənclər Fondunun icraçı direktoruna təqdim olunur və icraçı direktorun qərarı ilə seçilmiş təlimçilər Məlumat Bankına daxil olunur.

4.2. Təlimçilər Məlumat Bankına 2 il müddətinə daxil olunur. Təlimçiyə Məlumat Bazasına qeydiyyata alınması ilə bağlı çap və ya elektron formada Bildiriş verilir.

4.3. Məlumat Bankında qeydiyyat və bununla bağlı Bildirişin təqdim olunması təlimçinin kvafilifikasıyının və ya statusunun hər hansı formada tanınmasını özündə ehtiva etmir. Məlumat Bankı ancaq Gənclər Fondu tərəfindən və ya Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən proqram və layihələrdə tətbiq olunur.

4.4. Məlumat Bankında qeydiyyatda qalmaq üçün təlimçi 2 (iki) il müddətində ən azı 40 (qırx) saat təlim keçməlidir.

4.5. Təlimçi, Gənclər Fondu tərəfindən və ya Gənclər Fondunun dəstəyi ilə həyata keçirilən proqram və layihələr çərçivəsində təşkil olunan təlimlərdə təlimçi qismində iştirakı barədə elektron kabinetində məlumat yerləşdirməlidir.

4.6. Təlmiçi peşəkarlığının inkişafı ilə bağlı hər hansı bir təlimdə iştirak edərsə şəhadətnaməni elektron kabinetdə yerləşdirməlidir.

4.7. Təlimçilərin proqram və layihələrə cəlb olunması könüllü və ya qonorar (xidmət haqqı) ödənilməklə həyata keçirilir. Qonorarın məbləği dəvət edən təşkilatla təlimçi arasında razılaşma yolu ilə müəyyən olunur. Tərəflər arasında münasibətlər yalnız bağlanmış müqavilə ilə tənzimlənir.

## 5. Məlumat Bankının inkişafı

5.1. Gənclər Fondu gənclərlə iş sahəsində qeyri-formal təhsil mexanizminin təkmilləşdirilməsi və inkişafı ilə bağlı daxili sənədləşmə işlərini bu Əsasnaməyə istinad edərək həyata keçirir.

5.2. Gənclər Fondu təlimçilərin mütəmadi görüşlərinin keçirilməsi və potensial təlmiçilərin inkişafı üçün müvafiq işlər aparır.

5.3. Məlumat Bankının inkişafı üçün texniki, proqram və informasiya təminatı ilə bağlı maraqlı tərəflər tərəfdaş və ya sponsor qismində cəlb edilə bilər.